| | |
|---|---|
| AKTIN NÖVÜ | Qanunlar |
| QƏBUL EDİLDİYİ TARİX | 17.10.2014 |
| QEYDİYYAT NÖMRƏSİ | 1066-IVQD |
| ADI | “İnsan alverinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Respublika Qəzeti (Dərc olunma tarixi: 25-11-2014, Nəşr nömrəsi: 257), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-11-2014, Nəşr nömrəsi: 11, Maddə nömrəsi: 1346) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 25.11.2014 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 010.080.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | 12201410171066 |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 24.11.2014 |

**"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununu Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, 8, maddə 694; 2013, 5, maddə 458) aşağıdakı dəyişikliklər edilsin:

1. 20.1-ci maddəyə "tətbiq edilmir" sözlərindən sonra ", habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarma haqqında qərar qəbul olunmur" sözləri əlavə edilsin.
2. 20.2-ci maddədə "Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarma cinayət təqibi başa çatanadək tətbiq olunmur" sözləri "cinayət təqibi başa çatanadək Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarma tətbiq olunmur, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarma haqqında qərar qəbul edilmir" sözləri ilə əvəz edilsin.
3. 20.3-cü maddənin birinci cümləsinə "tətbiq olunmur" sözlərindən sonra ", habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarma haqqında qərar qəbul edilmir" sözləri əlavə edilsin.
4. 20.7-ci maddə ləğv edilsin.
5. 21.3-cü maddədə "etibarsız hesab edilir" sözləri "ləğv edilir" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 oktyabr 2014-cü il
1066-IVQD